**Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 31 oktyabr 2000-ci il tarixli 4213 saylı iclasında qəbul etdiyi 1325-ci (2000)**

# "Koalisiya - 1325"-in bəyannaməsi

Biz, aşağıda imza atanlar 2002-ci il sentyabrın 6-da Bakıda toplaşaraq İnsan hüquqları haqqında Ümumdünya Bəyannaməsi, 1995-ci ildə keçirilmiş 4-cü Ümumdünya Qadın Konfransında qəbul edilmiş Pekin Bəyannaməsi və Fəaliyyət Platforması, BMT Baş Assambleyasının "Qadınlar 2000-ci ildə: 21-ci əsrdə qadınlar və kişilər arasında bərabərlik, inkişaf və sülh" adlı 23-cü Xüsusi Sessiyası və uşaqlara dair Xüsusi Sessiyanın yekun sənədləri, eləcə də BMT Təhlükəsizlik Şurasının 31 oktyabr 2000-ci il tarixli 1325-ci qətnaməsinə istinad edərək

- hərbi münaqişələrin mülki əhaliyə, xüsusilə uşaq və qadınlara daha mənfi təsir göstərməsindən və onların hərbi işğal şəraitində zorakılıq qurbanları olmasından narahatlığımızı;

- silahlı münaqişə nəticəsində qaçqın və məcburi köçkünlərin çoxunu qadın, uşaq və yeniyetmə qızların təşkil etdiyini, qadınların təkbaşına ailə başçısı və valideyn funksiyalarını yerinə yetirdiyini;

- qadınların münaqişələrin sülh yolu ilə həll edilməsi və nizamlanmasında böyük rolunu, təhlükəslilik və sülhün qorunub möhkəmlənməsi istiqamətində onların hərtərəfli və bərabərhüquqlu iştirakının vacibliyini;

- münaqişələrin nizamlanması və qarşısının alınması istiqamətində, qərar qəbulu prosesində qadınların iştirakının qənaətbəxş olmamasını, bu sahədə onların rolunun gücləndirilməsi zərurətini;

- münaqişə zamanı və ondan sonra qadın və qızların hüquqlarını qoruyan, insan hüquqları sahəsində və humanitar hüquq normalarına əməl edilməsini nəzərə alaraq və;

BMT Təhlükəsizlik Şurasının 31 oktyabr 2000-ci il tarixli 1325-ci qətnaməsində öz əksini tapmış tədbirlərin əhəmiyyətini bir daha vurğulayaraq

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə uyğun olaraq Azərbaycanda qadınların "Koalisiya -1325" yaradılmasını bəyan edirik.
Koalisiya yuxarıda qeyd edilən problemləri və BMT Təhlükəsizlik Şurasının 1325-ci qətnaməsini əsas tutaraq aşağıdakı vacib vəzifələri yerinə yetirməyi öhdəsinə götürür:

1. Azərbaycanda milli, regional və beynəlxalq institutlar çərçivəsində münaqişələrin tənzimlənməsi və həlli proseslərinə qadınların cəlb edilməsinə və fəal iştirakının təmin olunmasına çalışmaq;

2. müxtəlif ölkələrdə fəaliyyət göstərən qadın təşkilatları ilə əlaqə yaradaraq onlarla sıx əməkdaşlıq qurmaq;

3. hər cür etnik və dini zəmində yaranan konfliktlərin qarşısını almağa çalışmaq;

4. qaçqın və məcburi köçkün qadınları sülh yaratma prosesinə daha yaxından cəlb etmək;

5. sülh mədəniyyəti ideyalarını təbliğ etməklə Azərbaycanda vətəndaş cəmiyyətinin qurulmasına çalışmaq.

Azərbaycan cəmiyyətinin həyatında qadınların əhəmiyyətli rolu daim yüksək səviyyədə olmaqla, dərin tarixi köklərə malikdir. Tarixən Azərbaycan qadınları cəmiyyətin nəinki elmi-mədəni, həm də ictimai-siyasi həyatında fəal rol oynamış, xalqın bir sıra problemlərinin həllində yaxından iştirak etmiş və lazım gəldikdə vətənin müdafiəsi üçün kişilərlə çiyin-çiyinə vuruşmuşlar. Bu gün də hər bir Azərbaycan qadını xalqımızın tale yüklü problemlərinin həlli ilə bağlı öz üzərində kişilərlə bərabər məsuliyyət hiss edir. Bizim məqsədimiz doğma respublikamızın müstəqilliyinin möhkəmləndirilməsi prosesində, xalqımızın ən ağrılı problemi olan Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi işində daha səylə çalışmaqdır.

Çoxəsirlik tarixi ənənələri, bu gün mövcud olan reallıqları nəzərə alaraq, ölkəmizin yuxarıda sadalanan beynəlxalq öhdəliklərindən çıxış edərək xalqımızın düçar olduğu münaqişənin həllində qadınların yaxından iştirakını təmin etmək məqsədi ilə yeni təsisatın yaradılmasını zəruri hesab edirik. Hesab edirik ki, regionda sülhün bərqərar olunması məqsədi daşıyacaq bu qurum Azərbaycan Respublikasının üzləşdiyi problemlərin həllində və sülhsevər xalqımızın məcburi olaraq cəlb edildiyi münaqişənin tənzimlənməsində öz əvəzsiz tövhfəsini verəcəkdir.

Biz "Koalisiya 1325"-in üzvləri, Azərbaycan Respublikasının Prezidentinə, Milli Məclisə, Nazirlər Kabinetinə, beynəlxalq təşkilatlara, Azərbaycana akkreditə olunmuş xarici ölkələrin nümayəndəliklərinə, qeyri-hökumət və ictimai təşkilatların üzvlərinə, siyasi partiya liderlərinə, işgüzar dairələrin nümayəndələrinə və kütləvi informasiya vasitələrinə bəyan edərək ümidvar

olduğumuzu bildiririk ki, BMT-nin Təhlükəsizlik Şurasının 1325-ci qətnaməsinin öyrənilməsi və geniş təbliği münaqişələrə cəlb olunmuş tərəflərin beynəlxalq hüquq normalarını yerinə yetirmələri istiqamətində sülh yaratma qüvvələrinin fəallaşmasına və regional səviyyədə konstruktiv dialoqa kömək edəcək.

## Tədbirlər:

BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 1325 saylı Qətnamənin beşinci ildönümünə həsr olunmuş "Koalisiya 1325" qadın qrupunun üçüncü Milli Konfransı 2005-ci ilin oktyabrın 14-də, "Qrand Avropa" mehmanxanasında keçirilmişdir. Konfransda yüzdən çox nümayəndə iştirak etmişdir ki, onlardan 40 nəfəri ölkənin 14 rayonunu təmsil edirdi. Dəvət olunanlar arasında Məcburi köçkün qadınların Milli Şəbəkəsinin, ictimai və qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri də vardı.

Azərbaycan Neftçi Qadınlar Cəmiyyətinin sədri xanim Solmaz Hacıyeva konfransı açdı və daha sonra söz Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Zəhra Quliyevaya və UNİFEM layihəsinin Milli Əlaqələndiricisi xanım Gülşən Paşayevaya verildi.

"Koalisiya 1325"-in sədri xanım Səcidə Əbdulvahabova 2005-ci ilin yayında Azərbaycanın 14 rayonunda "Koalisiya 1325"-in üzvləri tərəfindən həyata keçirilmiş "Yerli əhalidən hökumətə doğru - Azərbaycanda gender bərabərliyi prioritetlərinin müəyyən edilməsinə dəstək" adlı forumların nəticələrini iştirakçılara təqdim etdi. Yerlərdə keçirilmiş bu forumları "Koalisiya 1325" qadın qrupu hökumət tərəfdaşı olan Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsi ilə birgə həyata keçirmişdi. Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri xanım Nərmin Bağırova iştirakçılara Komitənin gələcək fəaliyyət planları haqqında məlumat verdi.

Plenar iclas zamanı iyirmidən çox iştirakçı "Koalisiya 1325"-in gələcək fəaliyyəti barədə öz fikirləri ilə bölüşdü. Dörd əsas istiqamət üzrə: qadınlar, yoxsulluq və iqtisadiyyat; qadınlar, təhsil və səhiyyə; qadınlara qarşı zorakılıq və qadınlar və silahlı münaqişələr; və qadınlar qərar qəbul etmə səviyyəsində müzakirələr işçi qruplarında davam etdirildi.

İşçi qruplarındakı müzakirələrin yekunları plenar iclasda təqdim edildi. Konfrans iştirakçıları tərəfindən ümumi götürdükdə iqtisadiyyat, hüquq, insan hüquqları, sosial məsələlər və reproduktiv sağlamlıq məsələləri üzrə təhsil və təbliğat proqramlarının (təlimlər, seminarlar, və s.) aparılması təklif edildi. Eləcə də belə

proqramların kişilərin iştirakı ilə keçirilməsini, kütləvi informasiya vasitələri ilə daha yaxından işin qurulmasını, "Koalisiya 1325"-in üzvlərinin sayının artırılmasını tövsiyə edildi. Bu təkliflər bütün iştirakçılar tərəfindən bəyənildi.

Konfrans xanim Solmaz Hacıyeva və UNİFEM layihəsinin Baş Texniki Məsləhətçisi xanım Kristin Arab tərəfindən edilmiş son çıxışlarla bağlanıldı.

UNİFEM tərəfindən həyata keçirilən "Qadınlar Cənubi Qafqazda münaqişələrin qarşısının alınması və sülh yaradılması uğrunda" regional layihəsi qadınların sülh yaradılması prosesində iştirak etmək imkanlarını dəstəkləməkdə maraqlıdır və təsdiq edir ki, uzunmüddətli sülhün qorunub saxlanması üçün qadınların üzərinə ciddi məsuliyyət düşür.

UNİFEM layihəsi çərçivəsində "Koalisiya 1325" qadın qrupu qadınlar, sülh və təhlükəsizlik haqqında Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsinin prinsiplərinə əsaslanaraq qadınların sülh prosesində fəal iştirakına imkan yaratmaq məqsədilə 2002-ci ilin sentyabr ayında yaradılmışdır. Yaradıldığı gündən bu milli koalisiya BMTTŞ-nin 1325 saylı Qətnaməsinin məzmunu barədə Azərbaycan cəmiyyətinin məlumatını artırmağa və qadınların sülh yaratma proseslərində iştirakının vacibliyini vurğulamağa yönəlmiş bir sıra təşəbbüslər həyata keçirmişdir.

**“Nailiyyətlər, Perspektivlər ” adlı Konfrans**

2010-cu ildə qadınların qərarqəbuletmədə rolunu artırmaq, yerli qadınlar tərəfindən irəli sürülən sülh təşəbbüslərinə və yerli səviyyədə münaqişələrin həllinə yönəlmiş proseslərə dəstək vermək məqsədilə Qadın Problemlərinin Tədqiqat Birliyi-Qadın İnstitutu ilə birlikdə Avropa otelinin Azərbaycan zalında BMT-nin Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsinin 10 illiyinə həsr edilmiş “Nailiyyətlər, Perspektivlər ” mövzusunda İsveçin “Kvinna till Kvinna” fondunun dəstəyi ilə Konfrans keçirilmişdir.

Konfransın sonunda beynəlxalq təşkilatlara və Azərbaycan ictimaiyyətinə müraciət oxunmuşdur. Müraciətdə Qətnamənin müddəalarına müvafiq olaraq gender bərabərlik prinsiplərini daxil etməsinə, dövlətin cəmiyyətin həyatında hər kəsin tam iştirak imkanlarını təbliğ etmək üçün hamını birgə hərəkata dəvət edən və onlara dəstək verən bütün qüvvələri səfərbər etməsinə, ictimaiyyətin 7 noyabr Parlament seçkilərində namizəd qadınlara dəstək verməsinə çağırılır.